# "Qarabağın azad olunmasına öz torpaqlarımızın azad olunması qədər sevindik"

Noyabrın 8-də Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Özgür Özəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Özgür Özəl Azərbaycanın ərazi bütövlüyünün bərpası, 44 günlük Vətən müharibəsində Qələbənin dördüncü ildönümü münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırıb, Vətən uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərə Allahdan rəhmət diləyib.

"Qarabağın azad olunmasına öz torpaqlarımızın azad olunması qədər sevindik" deyən partiya sədri Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" ifadəsini xatırladıb.

Özgür Özəl Cümhuriyyət Xalq Partiyasının Avropa Şurası Parlament Assambleyasında və Sosialist İnternasionalında Azərbaycanı müdafiə etdiyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı telefon zənginə və təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, əvvəllər müəyyən yanlışlıqlar olub, amma bunlar keçmişdə qalıb. Dövlətimizin başçısı Yeni Azərbaycan Partiyası ilə CHP arasında əməkdaşlığın müsbət istiqamətdə cərəyan etdiyini vurğuladı.

***Prezidentin Mətbuat Xidməti***

Azərbaycan.- 2024.- 12 noyabr (№ 248).- S.5.